28 may / 2021

Ədəbiyyat QƏZETİ

# Səyyad Aranın "Доход Гейбуллы" kitabı rus dilində




Bu günlərdə tanınmış yazıçı Səyyad Aranın Moskvada "Доход Гейбуллы" ("Qeybullanın gəliri") hekayələr kitabı çap olunub. Hekayələri rus dilinə tanınmış tərcüməçi Püstə Axundova çevirib. Müxtəlif illərdə yazılmış hekayələr günümüzün reallığından bəhs edir. Sovet imperiyasının çöküşündən sonra Azərbaycan insanının keçirdiyi hiss və həyəcanlar, yenilik və müstəqillik ritmlərinin oyatdığı sevinc və qürur duyğuları hekayələrdə təbii şəkildə üzə çıxır. Müasir həyatın nəbzi aydın, açıq hiss olunur. Əsərlərin dili, təkiyyəsi müasir oxucunu XX əsrin sonunda baş verən hadisələrin iştirakçısına çevirir.